AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

- 19327 -

## TƏRANƏ BEHBUDOVA

# ŞİMALİ AZƏRBAYCANDA 1877-ci il ÜSYANLARI

**(Ali məktəblər üçün dərs vəsaiti)**

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI - 2023

63.3(5Azə)53-4
B 38

**Elmi redaktor:** **t.ü.f.d. H.N.Həsənov**

**Rəyçilər:** **dos.S.R.Bağırova**

**Behbudova Tərana Gəray qızı. Şimali Azərbaycanda 1877-ci il üsyanları. Ali məktəb tələbəli üçün dərs vəsaiti. Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2023. – ... s.**

Ali məktəblər üçün nəzərdə tutulmuş "Şimali Azərbaycanda 1877-ci il üsyanları" adlı dərs vəsaitindəXIX əsr Azərbaycan xalq azadlıq hərəkatının ən mühüm mərhələlərindən biri olan 1877-ci il üsyanlarının tarixi nəzərdən keçirilib. Müəllif xeyli hissəsi ilk dəfə daxil edilən mötəbər qaynaqlar, habelə geniş tarixşünaslıq materialları əsasında Quba, Dərbənd, Şəki, xüsusən də Göynük və b. yerlərdə baş vermiş üsyanların səbəbləri, gedişi və nəticələri ətraflı şəkildə tədqiq olunmuşdur.

Dərs vəsaiti ali məktəb müəllimləri, tələbələr, magistrlər, doktorant və elmi işçilər üçün nəzərdə tutulub.

B 0504000000-000
N-098-2016

*Qrifli nəşr*

© Behbudova T.G., 2023

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# I FƏSİL

# ŞİMALİ AZƏRBAYCANDA 1877-Cİ İL ÜSYANLARININ ÜMUMİ XARAKTERİSTİKASI

**Plan.**

1. Şimali Azərbaycanda 1877-ci il üsyanlarının öyrənilməsinin elmi əhəmiyyəti.
2. Məqsəd və vəzifələri. Problemin tarixşünaslıq və mənbəşümslıq bazası.
3. Problemin nəzəri və praktiki əhəmiyyəti

Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsi ölkə tarixçilərinə tədqiqatlarda müstəqil mövqe ortaya qoymaq və tarixi proseslərə son dərəcədə obyektiv yanaşmaq imkanları bəxş etmiş oldu. Bunun nəticəsidir ki, son 25 ildə aparılmış tədqiqatlar, yazılmış əsərlər tarixə baxışı ilə əvvəlkilərindən xeyli fərqlənir və Vətən tarixinin tarixşünaslığını zənginləşdirir.

Müstəqil Azərbaycan Respublikasının müasir dövrdə həm siyasi, həm iqtisadi və həm də mədəni sahədə əldə etdiyi böyük uğur¬lar ölkəmizdə tarix elminin inkişafına güclü təkan vermiş oldu. Ümummilli liderimiz, Ulu öndər H.Ə.Əliyevin tarix elminin inkişaf etdirilməsi üçün verdiyi tövsiyələr hal-hazırda uğurla həyata keçirilməkdədir. Çağdaş dövrümüzdə elmin müxtəlif sahələrinin dirçəldilməsi məqsədilə ona dövlət səviyyəsində qay¬ğının göstərilməsi və daim diqqət mərkəzində saxlanılması, ölkəmizin tarixinin öyrənilməsi istiqamətində tədqiqatların pərakəndə deyil, hərtərəfli və sistemli şəkildə, obyektiv və məqsəd¬yönlü aparılmasına geniş imkanlar açır. Bu da Azərbaycan tari¬xinin illərlə kölgədə qalmış və müasir dövr üçün öz aktuallığı ilə tarixçilərin diqqətini cəlb edən məsələlərinin araşdırılmasının əhə¬miyyətini kəskin şəkildə artırır.

Məlumdur ki, XIX əsrdə müstəmləkəçiliyə qarşı xalq azadlıq hərəkatının tərkib hissəsi olan lokal üsyanların ayrı-ayrılıqda tədqiq olunması Azərbaycan tarixçilərinin qarşısında duran mühüm vəzifələrdən biridir. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çarizmin müstəmləkə siyasətinə qarşı burada baş qaldırmış üsyanlar ilk növbədə xalqın həmin rejimi qəbul etməməsindən irəli gəlirdi. Əsasən türk-müsəlmanlardan olan yerli əhali, onlar üçün tamamilə yad görünən bir idarə quruluşuna boyun əyməmiş və narazılıqlarını həm də üsyanları ilə bildirmişdilər. Cənubi Qafqazın xristian əhalisi ilə müqayisədə müsəlmanlara olan xüsusi ögey münasibət, müsəlmanlara həmişə yuxarıdan aşağı baxılması, onlarla çox geridə qalmış kütlə kimi rəftar edilməsi və s. bəhs olunan dövrdə Şimali Azərbaycanda arası kəsilməyən üsyanların baş qaldırmasına gətirib çıxarmışdı. Belə üsyanlar adətən zülm ərşə dirənəndə, azadlıq məfkurəsi insanların beyinlərinə hakim kəsildikdə baş verirdi. Bu baxımdan 1877-ci ildə Şimali Azərbaycanın bir sıra bölgələrini bürümüş üsyanlar da istisna deyildir. Həmin üsyanların mötəbər qaynaqlar əsasında, obyektiv şəkildə araşdırılması bütövlükdə Azərbaycan xalqının çarizmə qarşı azadlıq mübarizəsinin tam və bitkin mənzərəsini yaratmaq baxımından çox aktual bir tarixi-elmi vəzifədir.

Azərbaycan tarixinin daha çox tədqiqatına ehtiyac duyulan dövrlərdən birinin – XIX əsrin tarixinin araşdırılması yeni tarixi faktların ortaya çıxarılmasına və tarixi hadisələrin obyektiv qiymətləndirilməsinə şərait yaradır. Haqqında bəhs olunan üsyanların baş qaldırmasının, dolayısı ilə əsas səbəblərindən birinin də Rusiya-Osmanlı müharibəsinin olmasını nəzərə alsaq, mövzunun hərtərəfli araşdırılmasının əhəmiyyətli olduğunu daha aydın göstərir.

Dərs vəsaitinin yazılmasını şərtləndirən ən başlıca amillərdən biri də məhz tarixi faktlara, mötəbər arxiv sənədlərinə, dövrü mətbuat materiallarına, statistik göstəricilərə əsaslanaraq, müqayisəli təhlillər aparmaqla 1877-ci il üsyanlarının tarixi əhə-

miyyətini bütün rəngarəngliyi ilə tədqiq etmək və ortaya qoymaqdır.

Şimali Azərbaycanda Rusiya işğalından sonrakı dövrdə rus çarizminin yeritdiyi ağır müstəmləkə siyasətinə etiraz əlaməti olaraq baş qaldırmış 1877-ci il Dərbənd, Quba, Nuxa və Zaqatala üsyanlarının köklü səbəblərinin, üsyanların gedişinin və nəticələrinin tədqiqi və şərhi dərs vəsaitinin əsas obyektini təşkil edir.

Dərs vəsaitində XIX əsrin I yarısına ekskurslar edilsə də araşdırmaların əsas xronoloji çərçivəsini XIX əsrin 50-70-ci illəri, ilk növbədə də XIX yüzilin 70-ci illərini əhatə edir.

SSRİ, o cümlədən Azərbaycan sovet tarixşünaslığında və son 25 ildə Vətən tarixşünaslığında bu mövzunun bir sıra aspektlərinə toxunulmuş bəzi əsərlərin yazılmasına baxmayaraq «Şimali Azərbaycanda 1877-ci il üsyanları» mövzusu indiyə kimi xüsusi tədqiqat obyekti olaraq işlənilməmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qurulana qədər 1877-ci il üsyanlarının səbəbləri olaraq göstərəcəyimiz məsələlərə "qafqazşünas tarixçilər" adlandırılan müəlliflərin əsərlərində subyektiv münasibət bildirilmişdir. Bu sıraya Cənubi Qafqazda yüksək hökumət vəzifələrində işləmiş çar məmurlarının əsərlərini də əlavə etmək olar. Onların yazmış olduqları əsərlərdə çarizmin müstəmləkə siyasəti obyektiv tədqiq olunmur, müstəmləkə rejimini qəbul etməyənləri, canilər, bu rejimə qarşı mübarizəsi cinayət kimi qələmə verilmişdi. Lakin bununla yanaşı həmin müəlliflərin əsərləri bizə zəngin mənbə əhəmiyyətli tarixi materialların ünvanını göstərir. Təbii ki, belə əsərlərdən tədqiqatlarda istifadə olunması xüsusi diqqət və obyektiv yanaşma tələb edir.

«Qafqaz kənd təsərrüfatı cəmiyyəti»nin vitse-prezidenti işləmiş və Cənubi Qafqazda aqrar islahatların hazırlanmasında, habelə bu islahatların həyata keçirilməsində yaxından iştirak etmiş M.N.Kuçayevin və «Qafqaz ipəkçilik stansiyası»nın rəhbəri olmuş N.N.Şavrovun əsərlərində bəhs etdiyimiz mövzu ilə bağlı bir sıra müxtəlif məsələlərə toxunulmuşdur. Bu

qəbildən olan əsərlərə O.Syomin və İ.Seqalın qələmlərinin məhsulu olmuş əsərləri də əlavə etmək olar. Sadalanan əsərlərdə 1870-ci il kəndli islahatının mahiyyəti düzgün açılmamış və çarizmin müstəmləkəçi aqrar siyasətinə haqq qazandırılmışdır. Bu əsərlərdə gətirilən müxtəlif səviyyəli faktik materiallara diqqətlə yanaşmaq bizi maraqlandıran bir sıra məsələlər baxımından vacibdir. Həmin müəlliflərin yanaşma tərzi qənaətbəxş olmasa da, həmin əsərlərdə çarizmin müstəmləkə siyasəti müdafiə edilsə də onların materialları müstəmləkə siyasətinin iç üzünün açılması baxımından gərəklidir.

Çar hökumətinin Cənubi Qafqazda həyata keçirmiş olduğu müstəmləkə siyasətinin tərkib hissəsi olan aqrar qanunların və digər islahatların mahiyyətini və tarixi əhəmiyyətini qabarıq şəkildə təqdim etməyə çalışan S.A.Yegiazarov, O.Syomin, S.Avaliani və S.Esadzekimi müəlliflər çarizmin istər vaxtı çatmış və istərsə də vaxtında verilməmiş bütün islahatlarını canfəşanlıqla təriflərlə bəzəməklə oxucunun sərəncamına verirlər. Bu müəlliflərin əsərlərində çarizmin Cənubi Qafqazda həyata keçirdiyi aqrar qanunlara və bu diyarın sosial-iqtisadi durumuna toxunulmuşsa da, kəndlilərin ağır həyat şəraitinin əsl səbəbləri açıqlanmamışdır.

Qafqazda müxtəlif vəzifələri icra etmiş bir sıra çar məmurlarının xatirələri bizə 1870-ci il kəndli islahatının keçirilməsi, bu aqrar kampaniyanı həyata keçirənlər, habelə bəy komissiyaları haqqında əvəzedilməz məlumatlar verir. «Russkaya starina», «Russkiy arxiv» və «Russkiy vestnik» kimi dövri mətbuat orqanlarında işıq üzü görmüş həmin əsərlərdən işimizdə kifayət qədər geniş şəkildə istifadə edilmişdir.

Dərs vəsaiti hazırlanarkən rus hərbçilərin yazmış olduqları əsərlərdəndə istifadə olunmuşdur ki, həmin əsərlərdə 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin gedişatı ilə bağlı bir sıra məqamlara aydınlıq gətirilmişdir. Bu əsərlərdə rus qoşunlarının qələbələrini böyük uğur, zəfər yürüşləri olaraq şişirdilmiş şəkildə təqdim edir və uğursuzluqları isə təbii şəraitlə

və digər amillərlə bağlanılır. Onu da qeyd etmək yerinə düşərdi ki, müharibədə iştirak etmiş ayrı-ayrı alayların tarixinə və onların hərb həyatının təsvirinə həsr olunmuş bu əsərlərdə bəzi hallarda Qafqazda baş qaldırmış üsyanlara da toxunulmuşdur.

Yeri gəlmişkən 1990-cı ildə İ.K.Kanadeyevin "Azərbaycan Sovet Ensiklopediyası" nəşriyyatında yenidən nəşr olunmuş əsərində müəllif Rusiya-Osmanlı müharibəsində Osmanlı tərəfindən Qafqaz cəbhəsinin baş komandanı olmuş Muxtar paşa ilə olan müsahibəsinə xeyli yer ayırmışdır. Burada keçmiş türk generalının açıqlaması maraq doğurur. Rus-türk müharibəsində bir sıra rus qoşun hissələrinin başında erməni generallarının durmasını və onların şəxsən tanıdığını deyən Muxtar paşa göstərirdi: «Fikirləşirəm, siz də mənimlə razılaşarsız ki, ermənilərdən ibarət olan qoşuna Lazarev, Loris-Melikov, Alxasov və Ter-Qukasovdan güclü generallar başçılıq etsəydilər belə, onlar heç vaxt Qarsa yaxınlaşa bilməzdilər».

Əsərini 1877-ci ildə Çeçenistanda və Dağıstanda baş vermiş üsyanlara həsr etmiş P.İ.Kovalevski Dərbənd ətrafında baş vermiş üsyana da müəyyən qədər yer ayırmışdır. Rus tarixçilərinin yerli xalqlara olan münasibətləri elə bu əsərdə də qabarıq şəkildə ortaya qoyulmuşdur.

Azərbaycanda sovet rejimi qurulduqdan sonra sovet ideologiyasına cavab verən marksist ruhlu əsərlər yazılmağa başlamışdı. Tarixə sinfi don geydirən bu əsərlər özünəməxsusluğu ilə fərqlənirdi. Sovet hakimiyyətinin ilk onilliklərində kənd təsərrüfatı tarixinin yazılmasına müəyyən cəhdlər göstərilsə də, Azərbaycan tarixinin bir sıra digər mümkün sahələrinə diqqət xeyli zəif idi, belə əsərlərin sayı çox az idi, onlarda obyektivlik anlamı "sinfi maraqlar baxımından qiymətləndirmə" ilə əvəzlənirdi.

Azərbaycanın tarixinin öyrənilməsində və tədqiqində azərbaycanlı tarixçilərindən olan M.Vəliyev, R.Hüseynov və Ə.Ubaydullinin keçən əsrin 20-30-cu illərində işıq üzü görmüş əsərlərində Şimali Azərbaycanda çarizmin aqrar siyasəti, kəndlilərin sosial-iqtisadi vəziyyəti, torpaq sahələrin bölünməsi

və yenidən bölünməsi, kəndlilərin istifadəsindəki torpaq sahələrinin miqdarı və digər məsələlərə diqqət yetirilir.

Dağıstan tarixçisi M.R.Məhəmmədovun 1877-ci ildə Qafqazda, o cümlədən Dağıstanda və Çeçenistanda baş vermiş üsyanlara həsr olunmuş əsərini sovet dövrü üçün bu sahədə ilk əsər hesab etmək olar. Dövrün ideologiyasına sadiq qalan müəllif əsərində üsyanın başlanmasının əsl səbəblərini üzə çıxara bilməmişdir. Əsərdə bu üsyanın Şimali Azərbaycanda da yayıldığı göstərilmişdir.

Ə.N.Quliyev və V.D.Moçalovun redaktəsi ilə «Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri» adlı kitabın 1955-ci ildə nəşr edilməsi tarixşünaslıqda müəyyən canlanmaya gətirib çıxardı. Belə məsələlərə maraq xeyli artdı, 1958-ci ildə V.D.Moçalovun və Ə.S.Sumbatzadənin sosial-iqtisadi tarixə aid irihəcmli monoqrafiyaları böyük tirajla nəşr olundu.

Ə.S.Sumbatzadənin ittifaqın bir sıra arxivlərindən əldə edilmiş zəngin arxiv materialları əsasında yazmış olduğu «XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı» adlı monoqrafiyasında Azərbaycan sovet tarixşünaslığında ilk dəfə olaraq Şimali Azərbaycan kənd təsərrüfatının demək olar ki, bütün sahələrinə nəzər yetirilmişdir. Müəllif kənddə aqrar münasibətlər tarixinin bir sıra ciddi məsələlərini araşdırmaqla, sosial-iqtisadi dəyişikliklərin səbəblərini aşkara çıxarmışdır. Bu istedadlı tarixçi akademik digər monoqrafiyasında kənddə kapitalist münasibətlərin inkişafı məsələlərinə toxunur. Azərbaycan sovet tarix elminin patriarxı hesab olunan akademik Ə.S.Sumbatzadə XIX əsr Azərbaycanının sosial-iqtisadi həyatındakı əsas, kardinal məsələlərini dərindən təhlil edə bilmişdir. Onu da qeyd etmək yerinə düşərdi ki, bu istedadlı və zəhmətkeş akademikin 1961-ci ildə çap olunmuş 1870-ci il 14 may islahatına həsr olunmuş məqalələri də xüsusi maraq doğurur. Müəllif həmin əsərlərində Şimali Azərbaycanda məhz bu aqrar islahatının verilməsindən sonra kapitalizmin təşəkkül tapdığını sübut etməyə çalışmışdır.

XIX əsrin sonu – XX əsrin əvvəllərinin Şimali Azərbaycanın aqrar tarixini tədqiq edən ən məhsuldar müəlliflərdən biri də AMEA-nın müxbir üzvü mərhum M.Ə.İsmayılov olmuşdur. Onun monoqrafiyalarında bəhs olunan dövrün kənd təsərrüfatı ilə bağlı bütün məsələlərə toxunulmuş və bu sahədəki bir sıra boşluqlar uğurla aradan qaldırılmışdır. Onun əsərlərində Şimali Azərbaycan kəndində əkinçilik kapitalizminin ən mühüm məsələləri tədqiq olunur. Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan sovet tarixşünaslığında bilavasitə dövlət kəndliləri tarixinin öyrənilməsində də ilk əsər məhz onun qələminin məhsuludur.

Elmi maraq dairəsi genişliyi qədər də rəngarəng olmuş M.Ə.İsmayılovun əsərlərində kapitalizmin ümumi təkamülü prosesində torpaq sahibkarlığı və torpaqdan istifadə, kəndlilərin sənaye mərkəzlərinə axışması, istehsal vasitələrinin sahibkarların əlində cəmləşməsi, sələmçilik, kənd təsərrüfatı texnikasının primitivliyi, vergi və mükəlləfiyyətlərin ağırlığı, milli zülm, neft sənayesinin vəziyyəti, ümumiyyətlə çarizmin müstəmləkə siyasətinin mahiyyəti ətraflı şəkildə araşdırılmışdır. O, Azərbaycan tarix elminin tarixində xüsusi mövqe qazanmış görkəmli tədqiqatçılardandır.

Şimali Azərbaycanın siyasi quruluşuna həsr edilmiş maraqlı bir əsərin müəllifi olan A.Milman nəzərdə tutmuş olduğu xronoloji çərçivə daxilində Şimali Azərbaycanda həyata keçirilmiş demək olar ki, bütün islahatları nəzərdən keçirməyə və həmin islahatların nəticələrini qısa da olsa şərh etməyə çalışmışdır.

Rusiya-Osmanlı müharibəsində və bu zaman Cənubi Qafqazda baş vermiş hadisələri qələmə almış gürcü tarixçisi Ş.V.Meqrelidzenin əsərlərində bəhs etdiyimiz üsyanlara da toxunulmuşdur.

Şimali Azərbaycanda çarizmin aqrar siyasətinin iqtisadi tərəfini tədqiq edən iqtisadçı alim T.E.Nəbiyev kəndlilər arasında təbəqələşmənin sürətlə getdiyini və bu prosesdə 1870-ci il

aqrar islahatının rolunu açıqlamışdır. Lakin müəllifin də qeyd etdiyi kimi, bu islahatın Şimali Azərbaycan kəndlilərinin ⅔ hissəsinə – xəzinə kəndlilərinə şamil edilməməsi təbəqələşmədə həmin islahatın o qədər də böyük rolunun olmadığı üzə çıxmışdır.

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin başlanması ilə əlaqədar olaraq nəşri dayandırılmış «Əkinçi» qəzetinin son saylarındakı dərc olunmuş məqalələrdə müharibəyə və üsyana müəyyən qədər yer ayrılmışdır. Bu da qəzetin dövrün siyasi hadisələrə biganə qalmaması ilə bilavasitə bağlı olmuşdur.

Su sahibliyi və sudan istifadə məsələsinə ilk dəfə tarixşünaslığımızda İ.A.Talıbzadənin əsərində tam aydınlıq gətirilmişdir. Onun XIX əsr və XX əsrin əvvəllərində Şimali Azərbaycanda bu məsələyə həsr olunmuş monoqrafiyasında külli miqdarda arxiv materialları əsasında su sahibliyi və sudan istifadənin torpaq sahibliyi və torpaqdan istifadə məsələlərindən az əhəmiyyətli olmaması sübuta yetirilmişdir. Bu günə kimi İ.A.Talıbzadənin bəhs etdiyimiz əsəri bu sahədə yeganə sanballı əsər olaraq qalır.

Azərbaycan sovet tarixşünaslığında ilk dəfə 1877-ci il üsyanına öz tədqiqatında xeyli yer ayırmış M.M.Gülmalıyev üsyanın mahiyyətini, başlanmasını və gedişatını bütövlükdə tədqiq etməyə cəhd göstərmiş, lakin qarşıya qoymuş olduğu məqsədə ancaq müəyyən dərəcədə nail ola bilmişdir. Bu, belə də olmalıdır. Mövzunun adından göründüyü kimi müəllif bu tədqiqatında bir sıra digər önəmli məsələlərdən də yan keçə bilməzdi. Təsadüfi deyildir ki, sovet dövrünün siyasi ideoloji pərçimlərindən yan keçə bilməyən M.M.Gülmalıyev Şimali Azərbaycanda baş qaldırmış bu üsyanları həmin dövrdə baş vermiş adi kəndli üsyanı kimi təqdim edir.

Lakin Azərbaycan müstəqillik əldə etdikdən sonra, Azərbaycanın aqrar tarixinə və o cümlədən kəndli hərəkatı tarixinə həsr olunmuş xüsusi tədqiqatlara çox az təsadüf edilir. Onu da qeyd etmək yerinə düşərdi ki, bu sahədə müəyyən işlər görül-

müş və tarixçilərin diqqətindən kənarda qalmamışdır. Ə.F.Məmmədovun və R.Y.Niftəliyevin tədqiqatları buna misal ola bilər.

Ə.F.Məmmədovun əsərində Şimali-qərbi Azərbaycanın kənd təsərrüfatı, kəndlilərin sosial-iqtisadi vəziyyəti, bu bölgədə çarizmin yeritdiyi bir sıra müstəmləkəçi islahatlar və digər məsələlər geniş şəkildə tədqiq olunmuşdur. Bu əsərdə həmçinin 1877-ci ildə Zaqatalada baş vermiş üsyan haqqında da xeyli məlumat verilmişdir. R.Y.Niftəliyevin əsərində isə Zaqatala üsyanı ilə yanaşı Şimali Azərbaycanın şimal ərazilərində baş qaldırmış Quba və Şəki üsyanlarından da bəhs olunur.

Son iyirmi ildə nədənsə ölkəmizin kənd təsərrüfatı tarixinə həsr olunmuş tədqiqatların aparılmasında heç bir irəliləyiş nəzərə çarpmır. Bu vaxta qədər bu sahədə tarix elminə yalnız H.N.Həsənovun monoqrafiyası məlumdur. Şamaxı və Göyçay qəzaları materialları əsasında yazılmış əsərində müəllif bəzən həmin qəzalar çərçivəsindən kənara çıxmış və müqayisələr aparmaq üçün digər qəzaların iqtisadi durumuna müraciət etmişdir. Əsər bu sahədə araşdırmalar aparan tədqiqatçılar üçün kompas rolunu oynayır desək səhv etmərik.

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin baş verməsinin Tiflis-Bakı dəmir yolunun çəkilməsini sürətləndirdiyini qeyd edən Q.Əliyev müharibədən dərhal sonra tərtib olunmuş «Qafqaz təqvimində» bununla bağlı bir sıra təkliflərlə çıxış etmiş məqalədən bəzi sitatları oxucunun nəzərinə çatdırır. Bununla yanaşı o, bu yolun çəkilməsi üçün müharibənin yeganə səbəb olmadığı da göstərir.

Şimali Azərbaycanda çarizm əleyhinə baş vermiş üsyanlar amansızcasına yatırıldıqdan sonra üsyan iştirakçıları kütləvi şəkildə cəzalandırılır və onların bir çoxu Rusiyanın daxili quberniyalarına sürgün olunurdu. Üsyanlarda iştirak edənlərin xeyli hissəsi isə azadlıqları uğrunda canlarından keçirdilər. Ölkə ərazisində baş vermiş üsyanların onun əhalisinin say tərkibinə müəyyən dərəcədə təsir göstərmişdir desək səhv etmərik. Ümumiyyətlə götürsək, K.Şükürovun Şimali Azərbaycan

**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**

